# DƏYƏRLİ TÖVSİYƏLƏR VERİLDİ



**Son zamanlar Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin məsul işçilərinin bölgələrə səfərləri bir ənənəyə çevrilib...**

**Ərazilərə baxış keçirilir, uğurlu cəhətlər təqdir olunur, problemlərin ləğvi istiqamətində müvafiq təkliflər irəli sürülür, mədəni-maarif müəssisələrinin fəaliyyətini günün tələbləri səviyyəsində tənzimləmək üçün lazimi tövsiyələr verilir.**

Təcrübə göstərir ki, bu cür görüşlərin keçirilməsi yalnız əmək intizamının gücləndirilməsi, məsuliyyətin artırılması və maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində müvafiq tədbirlərin müəyyənləşdirilməsinə öz töhvəsini verməklə yekunlaşmır, həm də respublika və beynəlxalq əhəmiyyətli mədəni hadisələr barədə rayon, şəhər, kənd və qəsəbə mədəni-maarif işlərinin məlumatlarını zənginləşdirir.

Elə bu səbəbdəndir ki, nazirliyin məsul əməkdaşlarının bölgələrə səfərləri böyük maraqla qarşılanır. Buna nümunə kimi Quba, Gədəbəy, Qusar, Qax və başqa rayonlarda keçirilən görüşləri göstərmək olar.

Bu mənada, Balakən rayonunun ucqar kəndi İtitalada - yenidən tikilmiş mədəniyyət evində təşkil olunmuş müşavirə əvvəlki görüşlərlə müqayisədə öz dolğunluğu ilə fərqlənir.

Tədbirdə Mədəniyyət və Turizm Nazirliyi Aparatının rəhbəri Firudin Qurbanovun rəhbərliyi ilə nazirliyin bir qrup məsul işçisi- regionlarla iş sektorunun müdiri Azər Əhmədzadə, kollegiyanın məsul katibi Tahirə Əliyeva, regionlarla iş sektorunun məsləhətçisi Elnur Hüseynov, mədəniyyət siyasəti şöbəsinin kitabxana işi sektorunun məsləhətçisi Samir Abbasov, elm və təhsil şöbəsinin məsləhətçisi Vüqar Baxışov, analitik proqramlar və texnika təminatı sektorunun məsləhətçisi Oruc Nəsirov iştirak edirdi.

Tədbiri giriş sözü ilə Balakən Rayon İcra Hakimiyyəti başçısının müavini Azad Balayev açdı. O, Respublika Mədəniyyət və Turizm Nazirliyinin məsul əməkdaşlarını və salona toplaşan rayon mədəni-maarif işçilərini salamladı, bu cür görüşlərin əhəmiyyətindən danışdı, tədbirin Balakəndə təşkil olunması barədə göstərişinə görə nazir Əbülfəs Qarayevə öz dərin təşəkkürünü bildirdi.



Söz nazirliyin icra aparatının rəhbəri Firudin Qurbanova verildi. O, tədbirə qatılan mədəniyyət işçilərinə görüşün məqsədini açıqladı.

Natiq mədəniyyət və turizm işi sahəsində respublikamızın rayon və şəhərlərində görülən işlərdən və qarşıda duran vəzifələrdən danışdı. O, respublikamızda turizmin inkişafına diqqətin artırıldığını xüsusi vurğuladı.

Daha sonra F.Qurbanov Balakən rayonunun bəzi mədəniyyət müəssisələrində, Katex, Mahamalar, Qazmalar, Qullar kənd mədəniyyət evlərində, kitabxanalarda olduğunu, Balakəndə yeni üslubda yaraşıqlı muzey, mərkəzi kitabxana sistemi tikildiyini, istirahət parkının yenidən salındığını söylədi, Katex kənd mədəniyyət evində əsaslı təmir işləri aparılmasını tövsiyə etdi.

Tədbirdə Balakən Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Ruqiyyət Seyidova çıxış edərək bölgədə görülən işlər barədə məlumat verdi. Dedi ki, əksər mədəni-maarif müəssisələrimiz əsaslı təmir olunmuş, müasir avadanlıqlarla təchiz edilmişdir.

Görüşdə tarix-diyarşünaslıq muzeyinin direktoru Zakir Qarayev, MKS-nin direktoru İradə Qumriyeva, uşaq incəsənət məktəbinin direktoru Arifə Tağıyeva, rayon mədəniyyət və turizm şöbəsinin inspektoru Sevda Yusifova, MKS-nin direktor müavini Səkinə Qədirova, İtitala kənd mədəniyyət evinin direktoru Qürbət Qurbanov, Katex kənd mədəniyyət evinin direktoru Nərgiz Hacıyeva və kəndin icra nümayəndəsi Gülzar Qarayeva çıxış edərək öz fikir və mülahizələrini söylədilər.

Nazirliyin icra aparatının rəhbəri Firudin Qurbanov mədəniyyət işçilərinin bütün təkliflərini diqqətlə dinlədi, onlar barədə rəhbərliyi məlumatlandıracağını bildirdi.

**Tədbirə Balakən Rayon İcra Hakimiyyəti başçısının müavini Azad Balayev yekun vurdu. Səmimi şəraitdə keçən görüş incəsənət ustalarının geniş konsert proqramı ilə sona yetdi...**

● **Şirin QƏLBİNUR,**
***zona müxbirimiz***